**K.K.MƏMMƏDOV**
*e-mail: kmammadov69@bk.ru*
**:https://orcid.org/0009-0009-5755-1181**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2024.4.301**

# İBTİDAİ SİNİFLƏRDƏ HƏRBİ-VƏTƏNPƏRVƏRLİK PROBLEMİ

***Xülasə.*** *Məqalədə ibtidai sinif şagirdlərinin hərbi-vətənpərvərlik tərbiyəsi problemi müasir tələblər baxımından təhlil olunur, ibtidai sinif şagirdlərinin hərbi-vətənpərvərlik tərbiyəsinin məzmununa, nəzəri və metodik əsaslarına, səmərəli yol və vasitələrinə yeni əlavələr olunur. Göstərilir ki, ibtidai sinif müəllimləri və valideynlər hərbi-vətənpərvərlik tərbiyəsinin mahiyyətini, məqsəd və vəzifələrini, məzmununu, pedaqoji və psixoloji əsaslarını aydın təsəvvür edərlərsə, təlimin səmərəliliyi yüksəlmiş olar.*

***Açar sözlər:*** *hərbi-vətənpərvərlik tərbiyəsi, təlim, milli ordu, milli qəhrəman, xain düşmən*

Vətənpərvərlik geniş anlayış olub, bir sıra əlamətlərə malikdir. Onun aparıcı əlaməti yeniyetmə və gəncləri Vətənin fəal müdafiəçiləri kimi böyütməsidir. Elmi pedaqogikada bu, hərbi-vətənpərvərlik tərbiyəsi anlayışı kimi formalaşmışdır.

Hərtərəfli inkişaf etmiş insanın mühüm keyfiyyətlərindən biri hərbi-vətənpərvərlik hissinə yiyələnməkdir [4, s.167]. Onun mahiyyətini ideya-siyasi, fiziki, hərbi-texniki və ibtidai hərbi hazırlıq təşkil edir. Bu da gənc nəsli Vətənin müdafiəsinə, hərbi xidmətdə müqəddəs borcunu yerinə yetirməsinə hazırlayır.

Bir daha təkrar demək lazım gəlir ki, hərbi-vətənpərvərlik tərbiyəsinin əsas əlamətlərindən biri olub, insanın öz vətənini, ana dilini, xalqının mütərəqqi adət-ənənələrini sevməsini, milli ordu sıralarında hərbi xidmətə hazırlanmasını, müasir hərbi texnikanı mükəmməl və yüksək səviyyədə idarə edə bilməsini nəzərdə tutur. Bu çoxcəhətli fəaliyyətin əsas məqsədi ordunun və xalqın birliyini möhkəmlətmək, gənc nəsildə doğma yurduna hədsiz sədaqət, hərbi işə hörmət və məhəbbət hissini gücləndirməkdən ibarətdir.

Hərbi-vətənpərvərlik tərbiyəsinin ibtidai siniflərdə başlıca vəzifəsi məktəblilərin əxlaqi, siyasi, psixoloji, fiziki və hərbi-texniki cəhətdən vətənin müdafiəçiləri kimi hazırlamaqdır [1, s.67]. Sinif müəllimləri şagirdlərin vətənpərvərlik tərbiyəsinin təşkili təcrübəsinə yiyələnməlidirlər.

İbtidai siniflərdə hərbi-vətənpərvərlik tərbiyəsini geniş, əhatəli və elmi-pedaqoji cəhətdən daha səmərəli qurmağın xüsusi əhəmiyyəti vardır. Həmin siniflərdə işləyən müəllim və tərbiyəçilərin bunları bilməsinin faydalılığını nəzərə alaraq, onların izahı üzərində dayanmağı lazım bilirik.

İbtidai sinifdə hərbi-vətənpərvərlik tərbiyəsinin birinci mühüm faydası şagirdlərdə kiçik yaşlardan vətənə məhəbbət hissini gücləndirməkdir. Şagird Vətənini təkcə zümrüd meşəsinə, neft yataqlarına, taxıl zəmisinə, dağına, aranına görə deyil, həm də Vətənin müdafiə sipəri olan hərbi-texnikasına, qüdrətli ordusuna, qorxmaz əsgərlərinə görə sevməlidir. Bu sevgi hissi ata-ana öyüdü ilə birlikdə məktəblilərin anlaq səviyyələrinə uyğun bədii əsərlər, dərsliklər vasitəsilə aşılanmalı və məktəbin ümumi tərbiyəvi işlərindən keçməlidir.

İbtidai siniflərdə hərbi-vətənpərvərlik tərbiyəsinin təşkilinin ikinci mühüm faydası şagirdlərin bu əsasda vətənin dostunu və düşmənini tanımasını təmin etməkdir. Bu cəhətdən

xalqımızın bəxti gətirməmişdir. Əsrlər boyu bizə dost deyən, respublikamızda yaşayıb, sərvətlərindən bəhrələnən ermənilər bizə düşmən kəsilmişlər. Müdrik atalarımızın sözləridir: "Canavardan dost olmaz", "Düşmən qarışqa olsa da, sən onu fil say", "Düşmənə fürsət vermə, ayıq ol", "Gizli düşmən ilan kimidir, sürünə-sürünə səssiz gəlir". Bunlar o deməkdir ki, hələ kiçik yaşlarından məktəblilərə xalqımızın düşmənlərini tanıtmalı və onlara qarşı mübariz olmaq hissi aşılanmalıdır.

İbtidai siniflərdə hərbi-vətənpərvərlik tərbiyəsinin təşkilinin üçüncü faydası kiçikyaşlı məktəblilərin erkən yaşdan vətənin müdafiəsi üçün bilik, bacarıq və vərdişlərə yiyələndirilməsidir. Hərbi iş əsgərdən döyüşün strategiya və taktikası, düşmənin üzərinə hücumun ağıllı planlaşdırılması, düşmən hücumunun qarşısını almaq kimi geniş hərbi bilik tələb edir. Bu biliklər müxtəlif müharibələrin izahı, təhlili ilə şagirdlərə çatdırılmalıdır. Onlar bu yolla hadisələri düzgün izah edir, düşünülmüş nəticələr çıxarır, hərbi peşəkarlıq qabiliyyətinə yiyələnirlər.

İbtidai siniflərdə hərbi-vətənpərvərlik tərbiyəsinin ardıcıl və səmərəli qurulmasının dördüncü faydası məktəblilərin ibtidai sinifdən hərbi xidmətə siyasi-əxlaqi cəhətdən hazırlanmaları ilə əlaqədardır. Milli orduda xidmət edəcək gənclərdə hələ ibtidai sinifdə oxuyarkən siyasi sayıqlığı gücləndirmək, əxlaqi keyfiyyətləri formalaşdırmaq və bununla da onları ata-babalarımızın inqilabi varislik qanunu əsasında tərbiyələndirmək lazım gəlir. Nəticədə şagirdlər ölkəmizin hər qarış torpağını daha çox sevər, onu hər cür təcavüzdən müvəffəqiyyətlə qoruyar, lazım gəldikdə, onun yolunda canlarından belə keçərlər.

Aparılmış məqsədyönlü, sistemli iş nəticəsində şagirdləri vətənpərvərlik ideyalarına, ölkəmiz və xalqımızla fəxr etmək hissinə, torpaqlarımızı qorumaq əzminə yiyələndirmək mümkündür. Tərbiyə işində bunun faydası əvəzsizdir.

İbtidai siniflərdə hərbi-vətənpərvərlik tərbiyəsinin aparılmasının beşinçi faydası uşaqların hərbi xidmətə psixoloji cəhətdən hazırlanmasıdır. Məktəblilərin hərbi xidmətə siyasi-əxlaqi hazırlıqları ilə psixoloji hazırlıqları arasında möhkəm sərhəd yoxdur, əksinə, bunlar bir-birini tamamlayan vahid prosesdir. Məlumdur ki, hərbi xidmət kollektivçilik münasibətlərinə əsaslanır. Əsgərin xidmət etdiyi hərbi hissənin sıravi əsgər və zabit kollektivi onun fəaliyyətinin psixoloji şəraitini müəyyənləşdirir. Bu səbəbdən də gənclərin kiçik yaşlarından hərbi xidmətə psixoloji cəhətdən hazırlıqlarının başlıca istiqamətlərini kollektivin mənafeyinə yönəltmək, onları kollektivin əhvali-ruhiyyəsinə şərik çıxmağa, kollektivin "iradəsi"nə, "tələbi"nə, "məqsədi"nə qoşmaq lazımdır. Məhz bu zaman hərbi xidmətə hazırlığın psixoloji bünövrəsi düzgün qoyulmuş olar. Həmin bünövrə üzərində isə digər psixi proseslər inkişaf etdirilməlidir. Təcrübə göstərir ki, əsgərlərin bu cür psixoloji hazırlıqları döyüş müvəffəqiyyətini şərtləndirir. Məhz ordu həyatının bu cəhətinə görə gələcəkdə hərbi xidmətə gedəcək məktəblilərin psixoloji hazırlıqlarını təhsil illərində gücləndirmək lazım gəlir. Axı hərbi həyat rahat və asan olmayıb, yüksək mənəvi-psixoloji hazırlıq tələb edir.

Özünü psixoloji cəhətdən hərbin çətinliklərinə hazırlamaq qələbənin rəhnidir. Bu keyfiyyət şərait və konkret işlə bağlı əsgərin döyüş vəziyyətini lazım gələn vaxt dəyişə bilməsini və onun qələbəyə yaxınlaşmasını təmin edir.

Göründüyü kimi, gələcəkdə hərbi xidmətə hazırlaşacaq bugünkü məktəblilərin psixoloji hazırlıq qazanmalarının olduqca böyük əhəmiyyəti vardır. Belə bir hazırlığa yiyələnən şagird diqqətli olur, onun hafizəsi dərinləşir, yaddaşı möhkəmlənir, müşahidə qabiliyyəti artır.

Apardığımız müşahidə və müsahibələrdən aydın olur ki, məktəblərdə müəllimlər ibtidai sinifdən başlayaraq fənlərin tədrisi zamanı Vətənə, milli ordumuza həsr olunmuş mətnlərdən istifadə edərək kiçikyaşlı məktəblilərin öz yurdunun layiqli müdafiəçisi olmasına çalışırlar. Bununla yanaşı, qabaqcıl məktəblərimizdə hərbi məzmunlu bədii və sənədli kinofilmlərə baxışlar təşkil edilir, ordumuzun döyüş yoluna həsr olunmuş ədəbi-bədii əsərlərin kollektiv şəkildə oxunub müzakirə edilməsi ilə, hərbi viktorinalar, əsgərlərlə görüşlərə, Şəhidlər xiyabanına ziyarətlərin təşkil edilməsinə və sairəyə müntəzəm yer verilməsilə şagirdlərdə cəsurluq və mərdlik Vətənin keşiyində durmağa həmişə hazır olmaq kimi vacib keyfiyyətlər formalaşdırılır.

Qabaqcıl sinif müəllimləri hərbi-vətənpərvərlik tərbiyəsi məqsədilə məktəblilərlə birgə Dağlıq Qarabağda mərdliklə həlak olan öz həmyerlilərinin məzarlarına gül-çiçək dəstələri qoyur, qəhrəmanların göstərdikləri şücaətə aid faktlar toplayır, onların həyat yoluna aid albom, foto-stend tərtib etməklə adlarını əbədiləşdirməyə çalışırlar.

Belə tədbirlər məktəblilərin hərbi-vətənpərvərlik hissini, Vətənin gələcək qoruyucusu olmaq əzmini artırır, Vətənə, doğma yurda, təbiətə, ana dilinə, mədəniyyətə, xalqın görkəmli şəxsiyyətlərinə məhəbbətini gücləndirir. Bununla da onlarda tədricən ətrafda baş verən hadisələrə öz münasibətini bildirmək qabiliyyəti formalaşır.

Aparılan məqsədyönlü və mütəşəkkil tədbirlər nəticəsində məktəblilər hərbi bilik, bacarıq və qabiliyyətlərdən yaşlarına uyğun olanlarını qavrayır, öz fəaliyyətlərində əməli həyata keçirir, müasir hərbi-texnika və döyüş zamanı onun rolu haqqında anlayışlara yiyələnir, şəhidlik zirvəsinin mahiyyətini aydın başa düşür, Vətənin müdafiəsinə kiçik yaşdan hazır olmağın zəruriliyi haqqında qəti əqidəyə gəlirlər.

Hərbi-vətənpərvərlik tərbiyəsinin ibtidai siniflərdə planlı və mütəşəkkil təşkili və aparılması şagirdlərdə vətənpərvərlik hissini gücləndirir, onlarda iradəlilik, dözümlülük, mətinlik, qorxmazlıq kimi iradi keyfiyyətləri, qarşıya çıxan çətinlikləri güclərinə müvafiq səylə aradan qaldırmaq, maneələri dəf etmək, öz fiziki sağlamlığının qayğısına qalmaq və s. bu kimi yüksək əxlaqi keyfiyyətləri formalaşdırır.

Düşmənin mənfur siyasətini aydın dərk edib ona nifrət hissi bəsləmək məhz kiçik məktəb yaşı dövründən formalaşdırılır. Vurduğu ağır yaralara görə düşmənə layiqli cavab vermək kiçik yaşlardan uşaqların əqidəsinə çevrilməlidir.

Hərbi-vətənpərvərlik tərbiyəsinin pedaqoji cəhətdən düzgün aparılması məktəblilərdə belə bir əqidə yaradır ki, oğlan-qız olmasından asılı olmayaraq, bütün gənclər orduda xidmət etmək üçün indidən psixoloji cəhətdən hazırlaşmalıdırlar. Erməni qəsbkarlarının ölkəmizdə apardığı ədalətsiz müharibədə tökdüyü nahaq qanlar göstərdi ki, şagirdlərin orduya kiçik məktəb yaşlarından psixoloji hazırlığı aclıq, susuzluq, yorğunluq, kəskin şaxta, dözülməz isti, bədənə verilən fiziki əziyyətlərə dözümlü olmaq kimi mühüm əlamətlərlə, psixi prosesləri və fərdi psixi xüsusiyyətləri düzgün inkişaf etdirməklə sıx surətdə bağlıdır. Bütün bunlar ibtidai sinif şagirdlərində tədricən yaradılıb inkişaf etdirilir.

İbtidai sinif şagirdlərinin hərbi-vətənpərvərlik tərbiyəsində nümunənin təsir qüvvəsi böyükdür [3, s.163]. Bu baxımdan müəllimin pedaqoji ustalığı əsas şərtdir. Müəllim təlim prosesində, eləcə də sinifdənxaric tədbirlərdə birinci sinifdən başlayaraq məktəbliləri ata-babalarımızın, ana-bacılarımızın, tarixi və milli qəhrəmanlarımızın vətənpərvərliyi, döyüşkənliyi, mərdliyi, mübarizliyi, təmkinliliyi, düşmənə qəzəbi, nümunəsində tərbiyə etmək üçün böyük pedaqoji ustalıq göstərməlidir. Onun doğma Vətəni, Milli ordu əsgərlərini dərin məhəbbətlə sevməsi, bu məhəbbəti söz və ifadələrində, hərəkətlərində nümayiş etdirməsi, şagirdlərin hərbi-vətənpərvərlik hisslərinə, mənəvi dünyasına müsbət təsir edir.

Bu vaxta kimi ibtidai siniflər üzrə proqram və dərsliklərdə şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə kifayət qədər yer ayrılmamış, problem bu yaş dövrü üçün ayrıca tədqiq edilməmiş, müəllimlər üçün elmi, pedaqoji və metodik materiallar az çap olunmuşdur [2, s.34]. Məhz buna görə də ayrı-ayrı mövzular tədris olunarkən müəllimin vətənpərvərlik tərbiyəsi üzrə daha çox hansı məsələlərə diqqət yetirəcəyi bilinmir; ibtidai siniflərin fənn proqramında vətənpərvərlik tərbiyəsi üzrə əlaqə pedaqoji və məntiqi tələblərə müvafiq yaradılmır; təlim materiallarının planına daxil edilən mövzuların bir qismi dərsliklərdə öz əksini tapmır.

***İşin elmi nəticəsi.*** Hərbi-vətənpərvərlik tərbiyəsi məktəbəqədər tərbiyə dövründən başlansa da, ibtidai siniflərdə fənlərin tədrisi prosesində geniş vüsət alır, şagirdlərdə Milli Ordumuza, şəhidlərimizə, qazilərimizə, Milli Qəhrəmanlarımıza rəğbət və məhəbbət hissi güclənir və dərinləşir.

***İşin elmi yeniliyi*** ondan ibərətdir ki, məqalədə ibtidai sinif şagirdlərinin hərbi-vətənpərvərlik tərbiyəsinin nəzəri və təcrübi məsələlərinə, pedaqoji və psixoloji əsaslarına yeni fikirlər daxil edilir, gələcək tədqiqatlar üçün yeni ideyalar verilir.

***İşin tətbiqi əhəmiyyətini*** bunda görmək olar ki, ibtidai sinif şagirdlərinin hərbi-vətənpərvərlik tərbiyəsi üzrə tövsiyələrdən, tədqiqat materiallarından proqram və dərslik müəllifləri gələcək fəaliyyətlərində bəhrələnə bilər.

**Ədəbiyyat**


1. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri / K.D.Uşinski, – Bakı: Azərnəşr, – 2009, – 303 s.
2. Tağıyev, Ş.T. Fənlərarası əlaqə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi / Ş.T. Tağıyev, – Bakı: Mütərcim, – 2022, – 231s.
3. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M.Kazımov, – Bakı: OKA Ofset, – 2016, – 514 s.
4. Pedaqogika: ali pedaqoji məktəblər üçün dərs vəsaiti / Y.A.Talıbov, Ə.A.Ağayev, İ.N.İsayev [və b.] – Bakı: Maarif, – 1993, – s. 292.


**K.K.Mamedov**

**The Problem of Military Patriotism in Primary Classes**

***Summary***

The article analyzes the problem of military-patriotic education of primary school students from the point of view of modern requirements, introduces new additions to the content, theoretical and methodological foundations, effective ways and means of military-patriotic education of primary school students. It is shown that if primary school teachers and parents clearly understand the essence, goals and objectives, content, pedagogical and psychological foundations of military-patriotic education, then the effectiveness of training will increase.

***Key words:*** *extra-curricular activities, military knowledge, the parabolic trajectory, the knowledge of physics, fire preparation*

**К.К.Мамедов**

**Проблема военного патриотизма в начальных классах**

***Резюме***

В статье проблема военно-патриотического воспитания учащихся младших классов анализируется с точки зрения современных требований, вносятся новые дополнения в содержание, теоретические и методические основы, эффективные пути и средства военно-патриотического воспитания учащихся младших классов. Показано, что если учителя начальных классов и родители четко представят себе сущность, цели и задачи, содержание, педагогические и психологические основы военно-патриотического воспитания, то эффективность обучения повысится.

***Ключевые слова:*** *военно-патриотическое воспитание, обучение, национальная армия, героизм, враг*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 17.11.2024*